# GET, AY BATANDAN SONRA GƏL




Gecə uzun, ay dolanır batmağa,
Ellər gedir rəxtixaba yatmağa.
Az qalıbdır mətləbinə çatmağa.

N ə q ə r a t:

Get, ay batandan sonra gəl, ay oğlan,
Nənəm yatandan sonra gəl, ay oğlan.

Gözlərin göyçəkdir, boyundur bəstə,
Dilin badam içi, dodağın püstə,
Hər nə desən, cümləsi gözüm üstə.

N ə q ə r a t:

Get, ay batandan sonra gəl, ay oğlan,
Nənəm yatandan sonra gəl, ay oğlan.

Bizim bağın bağçası var, barı var,
Gözəl-gözəl heyvası var, narı var.
Heç yatmayır bir imansız qarı var.

N ə q ə r a t:

Get, ay batandan sonra gəl, ay oğlan,
Nənəm yatandan sonra gəl, ay oğlan.